HAQQIN SÖZÜ-SÖZÜN HAQQI.

# Yeni YOL

31 avqust 2015-ci il
№006 (06)

yeni_yol@mail.ru | İCTİMAİ QƏZET | “იენი იოლი” საზოგადოებრივი გაზეთი | qəzet 17 iyun 2015-ci ildən nəşr olunur

## TÜRKİYƏ GÜRCÜSTANA HƏRBİ AVADANLIQ HƏDİYYƏ EDİB



Gürcüstanın Müdafiə Nazirliyi türkiyəli həmkarlarından hədiyyə şəklində hərbi maddi-texniki vasitələr alıb.

Hədiyyənin təntənəli təqdimat mərasimi Orxevi qəsəbəsindəki avtomobil batalyonunun bazasında keçirilib. Nazirliyin nümayəndəsi bildirib ki, Gürcüstan Silahlı Qüvvələri və DİN-nin sərhəd qoşunları departamenti üçün maddi-texniki vasitələrin hədiyyə edilməsi iki tərəf arasında 2004 və 2007-ci illərdə imzalanmış müqavilələr əsasında həyata keçirilib.

Gürcüstan tərəfindən yardımın qəbulu üçün sənədləri silahlı qüvvələrin logistik təminatı üzrə komandanı Mamuka Tsvediani və sərhəd qoşunlarının yüksək vəzifəli rəhbərlərindən biri olan Mixail Kavtaradze, Türkiyə tərəfindən isə bu ölkənin Gürcüstandakı hərbi attaşesi Bülent Kort imzalayıblar.

Maddi-texniki yardımın 700 min dollar dəyərində 143 çeşiddə vasitədən ibarət olduğu bildirilib.

Gürcüstan silahlı qüvvələri baş qərargahının rəis müavini Omar Beqoidze tədbirdəki çıxışında iki ölkə arasında müdafiə sahəsində mövcud olan əməkdaşlıq barəsində danışaraq, qonşu ölkəyə hərbi yardım üçün təşəkkürünü bildirib.

O deyib ki, Türkiyənin hədiyyəsi Gürcüstan ordusunun NATO standartlarına uyğun formalaşdırılması işində böyük imkanlar açır.

Maddi-texniki vasitələrin nədən ibarət olduğunu açıqlamayan baş qərargah rəisinin müavni söhbətin müasir və ən mükəmməl avadanlıqdan getdiyini vurğulayıb.

## AZƏRBAYCAN VƏ GÜRCÜSTAN GÖMRÜK TƏŞKİLATLARI MƏLUMAT MÜBADİLƏSİ EDƏCƏKLƏR

Azərbaycan və Gürcüstan gömrük orqanları informasiya mübadiləsi təşkil etməyi razılaşdırıblar. Bu barədə Azərbaycan Dövlət Gömrük Komitəsinin (DGK) məlumatında bildirilir.

İki ölkə arasında gömrük sahəsində əməkdaşlığın genişləndirilməsi və təcrübə mübadiləsi aparılması məsələləri avqustun 24-də Tbilisidə Azərbaycan və Gürcüstan gömrük təşkilatlarının nümayəndələrinin görüşündə müzakirə edilib.

Görüşün sonunda Azərbaycan DGK-nin inkişaf proqramı və fəaliyyətin qiymətləndirilməsi üzrə baş idarəsinin rəhbəri İqbal Babayev və Gürcüstan maliyyə nazirliyinin gəlirlər xidmətinin informasiya texnologiyaları mərkəzinin sədr müavini Qivi Murvanidze “İnformasiya mübadiləsi sisteminin texniki cəhətdən təmin olunması haqqında” sənədi imzalamışlar.



“Azərbaycan-Gürcüstan hökumətlərarası “Gömrük sahəsində administrativ yardımlar haqqında” müqaviləsinə uyğun olaraq imzalanmış bu sənədin məqsədi iki ölkə arasında ticarətin sadələşdirilməsindən, məhsullar və nəqliyyat vasitələri haqqında əvvəlcədən məlumat mübadiləsinin təmin olunmasından ibarətdir”, – məlumatda bildirilir.

## İCTİMAİ MƏKTƏBLƏRDƏ TƏDRİS SENTYABRIN 14-DƏ BAŞLAYACAQ

Gürcüstanın ictimai məktəblərində dərslər sentyabrın 14-də başlayacaq. Bu barədə avqustun 19-da keçirilmiş mətbuat konfransında Gürcüstanın təhsil və elm nazirinin müavini Liya Qiqauri məlumat verib. Özəl məktəblərə gəldikdə isə, tədris ilinin başlanması tarixini onlar özləri müəyyən edəcəklər.

Təhsil və elm naziri Liya Qiqaurinin məlumatına görə, 2015-2016-cı tədris ilində milli tədris planının administrativ hissəsinə müəyyən dəyişikliklər daxil edilib. Bu plana əsasən özəl məktəblər üçün minimum 34 həftə təhsil müddəti müəyyənləşdirilib. Əgər ölkəmizdəki özəl məktəblər tədrisi gec başlasalar, müvafiq olaraq tədris ilini də gec başa vuracaqlar.

Bu günə qədər Gürcüstanın ictimai və özəl məktəblərində 46660 şagird qeydiyyatdan keçib. Bu və ya digər səbəbdən uşaqlarını qeydiyyatdan keçirə bilməyən 820 valideyn təhsil nazirliyinə müraciət edib. Bununla əlaqədar 1-2 sentyabr tarixlərində birinci siniflərin əlavə qeydiyyat müddəti müəyyənləşdirilib.

## GÜRCÜSTAN KONSTİTUSİYASININ 20 İLLİYİ QEYD OLUNUB




Gürcüstan Konstitusiyasının 20 illiyi ilə əlaqədar prezident Qeorqi Marqvelaşvili təntənəli qəbul təşkil edib.

Ölkənin əsas qanununun 20 illiyinə həsr olunmuş qəbulda diplomatlar, Gürcüstan qanunverici, icraedici və məhkəmə hakimiyyətinin nümayəndələri, eləcə də jurnalistlər iştirak ediblər. Bundan əlavə, dəvətlilər arasında adları hazırkı konstitusiyanın qəbulu ilə bağlı olan ikinci çağırış Gürcüstan parlamentinin üzvləri də olub.

Qəbulda prezident Qeorqi Marqvelaşvili Konstitusiya gününün istirahət günü elan olunmasını təklif edib.

Prezidentin fikrincə, konstitusiyanı populyarlaşdırmaq gərəkdir və bu prosesə cəmiyyət də qoşulmalıdır. Bu məqsədlə prezident “Bizim Konstitusiya” adlı müsabiqənin keçirilməsini də təklif edib.

Xatırladaq ki, Gürcüstan Konstitusiyası 24 avqust 1995-ci ildə parlament tərəfindən 1921-ci il Konstitusiyasının müddəaları əsas götürülərək, qəbul edilib. 15 oktyabr 2010-cu ildə ölkə konstitusiyasına edilən dəyişikliklər prezidentin səlahiyyətlərini məhdudlaşdırır, baş nazirin və parlamentin funksiyasını gücləndirir. Gürcüstan prezidenti təmsilçilik funksiyasına malik olur. O, əvvəlki kimi dövlətin başçısı, konstitusyanın zəmanətçisi, silahlı qüvvələrin baş komandanı elan olunur, başqa dövlətlərlə münasibətdə ölkəni təmsil edir. Baş nazirə güc idarələri də daxil olmaqla nazirləri təyin etmək və dəyişmək üçün tam səlahiyyət verilir.

## NATO-NUN BAŞ KATİBİ YENS STOLTENBERQ GÜRCÜSTANDA OLUB



Avqustun 26-da axşam saatlarında NATO-nun baş katibi Yens Stoltenberq Gürcüstana iki günlük rəsmi səfərə gəlib.

Gürcüstana rəsmi səfəri çərçivəsində NATO-nun baş katibi Gürcüstan prezidenti Qiorqi Marqvelaşvili, baş nazir İrakli Qaribaşvili, parlamentin spikeri Davit Usupaşvili, xarici işlər naziri Tamar Beruçaşvili və hökumətin digər rəsmi şəxsləri ilə görüşüb. Görüşlərdə Gürcüstanın Şimali Atlantika blokuna üzvlüyü məsələsi xüsusi diqqət çəkib.

Baş katib NATO-nun çevik qüvvələri üçün hazırlanan rotanın zabit və əsgər heyəti ilə də görüşüb.

Avqustun 27-də NATO-nun baş katibi Yens Stoltenberq və Gürcüstanın baş naziri İrakli Qaribaşvili Krtsanisi milli təlim mərkəzinin ərazisində NATO-nun təlim və qiymətləndirmə mərkəzinin rəsmi açılışını ediblər.

Elə həmin gün NATO-nun baş katibinin Gürcüstana rəsmi səfəri başa çatıb.

## GÜRCÜSTAN PARLAMENTİ SENTYABRDA İŞƏ BAŞLAYACAQ



Gürcüstan parlamentinin payız sessiyası 1 sentyabrda büro iclasları ilə açılacaq. Birinci plenar iclas sentyabrın 2-də baş tutacaq. Deputatların müzakirə edəcəyi məsələlərdən biri prezident Qiorqi Marqvelaşvilinin veto qoyduğu “Milli bank haqqında” qanun layihəsi olacaq.

Hakim partiya üzvlərinin bəyan etdiyinə görə, vetonun ləğv olunması ilə bağlı problem olmayacaq. Belə ki, parlament əksəriyyətinin bunun üçün kifayət qədər vasitələri var. Öz növbəsində müxalifət əvvəlki kimi Milli bankın nəzarət funksiyasının ləğv olunmasına tərəfdar deyil.

Bundan başqa parlament üzvləri “Prokrorluq haqqında” qanun layihəsinə baxacaq və “İctimai xidmət haqqında” qanunda dəyişiklikləri səsə qoyacaqlar.



Afiq MUXTAROĞLU
*amuxtaroglu@mail.ru*

# RUSİYA İLƏ BİRGƏLİKDƏN UZAQ DURMAĞIN SƏBƏBLƏRİ

**Bizimki tutmaz, ay brat. Nəyə desən and içərəm ki, bizim sövdamız tutan deyil. Sən ayı kimi güclü, mən qurd kimi qürurlu. Gəl, yaxamdan əl çək, qoy işimlə-gücümlə məşğul olum, məni dağa-daşa salma. Heçimiz ayrı, köçümüz ayrı. Mənim sənə qoşulacaq artıq başım da yoxdur. Sən də kor tutduğunu buraxmayan kimi, əl çəkmirsən. Kobud səslənsə də gərək deyəm: səninki "it əl çəkər, motal əl çəkməz"dən oldu. Dəliyəm, güclüyəm deyib, düşübsən canımıza. "Babam mənə kor deyib, gələni-gedəni vur deyərək", bütün qonşuları özünə tabe etmək istəyirsən.**

Yəqin anladınız söhbətin kimdən və ya nədən getdiyini. Rusiya yenə də qonşuların əsəbləri ilə oynayaraq, səbrlərini sınağa çəkməkdə davam edir. Bir ara bizi qıcıqlandırmaq məqsədilə sərhədləri gecə demədən, gündüz demədən Gürcüstanın içərilərinə doğru sürüməklə məşğul olurdu. Sonra nə oldusa başqa bir üsulu təcrübədən keçirmək niyyətinə düşüb, yüzlərlə dəmiryolçu əsgəri gətirib tökdü işğal olunmuş Abxaziya ərazisinə ki, nə var, nə var mən bu yolu təmir edirəm. Xalq da ağlını əppəklə yeməyib ha, anladı ki, rus bratın ağlından başqa şeylər keçir. Adam qurddanquşluq edib bilmək istəyir ki, əcaba, rusun ağlından keçən nədir? Nə olacaq ki, yenə də qonşuların səbir kasasını daşırmaq, özünün gücünü nümayiş etdirmək, lazım gələrsə bu yolun davamını düz Ermənistana qədər uzatmaq və bununla da varlığını qəbul etdirmək. Xatırladaq ki, Abxaziyada gedən bu qanunsuz işlər barədə Gürcüstan öz mövqeyini XİN-nin bəyanatı ilə bütün dünyaya bəyan edib. Üstəgəl, beynəlxalq qurumlar da bu məsələdə Gürcüstanla eyni cəbhədə dururlar.

Adam utanmağın başını buraxıb, soruşmaq istəyir ki, ay rus brat, belə gücün var, get Avropaya göstər, get Amerikaya göstər, daha özündən zəiflərə əzələni göstərməklə abrını-həyanı niyə itirirsən. Üz ətdən olduğundan abrına qısılıb, soruşmursan ki, bəlkə özü qandı. Ay qandı ha. Indi, ay brat, belə çox bilənsənsə zibilə dönən puluyun, su qiymətinə düşən neftiyin dərdini niyə çəkmirsən. Öz aramızda qalsın, sənin ictimai fikrin qocalıb, deyəsən, bu ağılla hara gedirsən? Avropa, ABŞ səni vadar edir ki, qazancını silaha verəsən, başqa işləri yaddan çıxarasan və taxtın tarac ola.

Biz heç, deyək ki, sənə arxa çevirmişik. Bəs Kuba niyə sənə dirsək göstərəsi oldu, canı canından, qanı qanından olan slavyan ölkələri niyə səndən üz döndərdi. Bilməmiş olmazsan, qımışmağından bilirəm. Xalqları əsrlər boyu yalançı vədlərlə, qorxu-hürkü ilə özünə bağlaya bilməzsən, ay brat? Elə bu gürcünü götürək, sənə niyə inanmalıdır, niyə sənin yanında durmalıdır, axı? Sənin babaların deyildimi gürcünün dövlətini, dinini əlindən alan? Mən hələ təkcə gürcünü deyirəm, başqalarının adını çəkib səni utandırmaq istəmirəm.

Bilinən bir şey də var ki, sənin bu cığallığın, ərköyünlük etmək istəyin, Gürcüstanda NATO-nun təlim mərkəzinin açılması ilə bağlıdır. Nədən ki, sən istəməzsən düz qulağının dibində Gürcüstan kimi demokratik bir dövlət inkişaf edib, dünya birliyində öz layiqli mövqeyini tutsun. Cəhənnəmə gedən yoldaşını çox istədiyi kimi, sən çalışırsan bütün qonşuların da sənin gününə düşsün. Üstəgəl, avqustun 24-də Çində başlayan maliyyə böhranı da sənin kürkünə birə salmamış deyil. "Qara bazar ertəsi" sindromu sənin də bazarını bərbad vəziyyətə saldı. Xəbərimiz var ki, rublun məzənnəsi it gününə düşüb. Məncə, sən özündən, ölkənin içindən başlasan daha yaxşı olar. I Pyotrdan üzü bu yana davam edən, hələ də davam etməkdə olan, bitməsi də bir Allaha qalan islahatlarını sürətləndir, köklü islahatlar apar, qonşuların dərdini çəkmə, biz öz başımızın çarəsinə baxarıq.

**"Qara bazar ertəsi" demiş, avqustun 24-ü dünya birjalarında görünməmiş ajiotaj yaratdı, Rusiya qarışıq dünya ölkələrinin maliyyə bazarları çökdü. Heç bizim laridən də yan ötmədi. Şükürlər olsun, deyəsən, "qara bazar ertəsi" bizə yüngülcə toxundu. Nədən ki, biriki gün sonra lari az da olsa mövqeyini möhkəmləndirə bildi.**

# ŞƏRQİ GÜRCÜSTAN MÜFTİLİYİNİN VƏ GYMD-İN BİRGƏ TƏDBİRİ



Bütün Gürcüstan Müsəlmanlar İdarəsinin Şərqi Gürcüstan Müftiliyinin Qadınlar şurası 18 avqust 2015-ci il tarixində "Müasir Zamanda İslam və İnsan" mövzusunda tədbir keçirib. Tədbirə "Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı" ev sahibliyi edib.

Tədbir Qurani Kərimdən ayələr oxunaraq açıq elan olunub. İlk olaraq şuranın sədri Lamiyə Hacıyeva qonaqları salamlamış, daha sonra "Müasir zamanda İslam və insan" mövzusunda çıxış etmişdir. Natiq çıxışında İslam dininin çağdaş zamanımızda insanlara daha çox gərək olduğunu, fəlakətlərlə zənginləşən dünyamızda insanların əsas yol göstərəninə çevrildiyini, insanların bu dinin şərtlərinə əməl etməklə daha çox rahatlıq əldə edə biləcəklərini qeyd etmişdir.

Daha sonra Lamiyə Məmmədova "İbadət", Nabat Eminova "Səbr və şükür", Şəhla Mahmudova "Riya və göstəriş" mövzusunda çıxış edərək, İslam dininin gerçək tələbləri barədə toplaşanları məlumatlandırmışlar. Həmçinin tədbirdə GYMD-nin tələbələri Jalə Hacıyeva və Aidə Astanova müxtəlif şeirlər söyləmişlər.

Tədbirdə yerli cammatla bərabər, Bakıdan və Türkiyyədən gələn qonaqlar da iştirak etmişlər. Bakıdan tədbirə qatılan İradə Əliyeva və Türkiyədən gələn Mehriban Yağcı Gürcüstan kimi xristian bir ölkədə müsəlman qadınların belə fəaliyyətinin olmasını yüksək dəyərləndirmiş, onların fəaliyyətini bəyəndiklərini və davamlı olmasını dilə gətirərək, tədbir təşkilatçılarına uğurlar arzulamışlar.

# KOSALI İCTİMAİ MƏKTƏBİ YENƏ DƏ YÜKSƏK GÖSTƏRİCİYƏ NAİL OLUB




Artıq ali təhsil ocaqlarına qəbul imtahanları başa çatıb. Gürcüstan milli imtahan mərkəzi tələbələrin imtahanlarda topladığı balları açıqlayıb. Bu prosesdə ölkəmizin azərbaycanlı gəncləri də fəal şəkildə iştirak ediblər. Gürcüstan milli imtahan mərkəzinin məlumatına görə, bu il 28053 nəfər qəbul imtahanlarından uğurla keçib.

1+4 proqramı ilə qəbul imtahanlarına qoşulan gənclərimizin bir çoxu ölkəmizin müxtəlif ali təhsil ocaqlarına qəbul olunaraq, tələbə adı qazanıb.

Qardabani munispalitetinin Kosalı ictimai məktəbini bitirən gənclər də tələbə adı uğrunda mübarizədə iştirak ediblər. Onlardan 23 nəfəri ali məktəblərin hazırlıq kurslarına qəbul olunub. Kosalı məktəbindən bu il məzun olan Aydan Şamilova isə bütün imtahanlardan müvəffəq qiymət alaraq, birbaşa tələbə statusu qazanıb. Bizə çatan məlumatlara görə, məktəbi bitirən şagirdlərdən Leyla Allahverdiyeva isə Türkiyə Respublikasında ali məktəbə daxil olub.

Xatırladaq ki, 2014-2015-ci tədris ilində Kosalı ictimai məktəbini 67 nəfər şagird bitirib, onlardan da 25 nəfəri ali təhsil almaq yolunu seçərək, uğur qazanıb.

# BATUMİ DÖVLƏT UNİVERSİTETİNDƏ 4-CÜ BEYNƏLXALQ YAY MƏKTƏBİ KEÇİRİLİR



Şota Rustaveli adına Batumi Dövlət Univeristeti avqustun 24-dən sentyabrın 2-dək "Humanitar sahənin rəqəmsallaşdırılması – dil və mədəniyyətin elektron sənədləşdirilməsi" adlı 4-cü beynəlxalq yay məktəbinə ev sahibliyi edir. On günlük beynəlxalq yay məktəbi Şota Rustaveli adına Batumi Dövlət Univeristetinin və Frankfurt Höte Universitetinin təşkilatçılığı ilə dördüncü dəfədir keçirilir. Yay məktəbində Gürcüstanın müxtəlif ali məktəblərindən 25 tələbə iştirak edir. İştirakçılar "Vizual antropologiya", "Elektron dilçiliyin əsasları", "linqvistik annotasiyanın əsas prinsipləri", "Türkiyədə gürcü dili dialektləri", "Dil və mədəniyyətin sənədləşdirilməsinin əsas prinsipləri" kimi mühazirələri Tbilisi Dövlət Universitetinin, Azad Universitetin, Batumi universitetinin, Frankfurt Universitetinin, Hollandiyanın Neymegen Universitetinin professorlarından dinləyirlər. Layihənin məqsədi Gürcüstanda rəqəmsal humanitar sahənin inkişaf etdirilməsidir. Proqram zamanı dinləyicilərə dilin və mədəniyyətin elektron sənədləşdirilməsinin əsas prinsipləri və metodları öyrədilir. Proqram çərçivəsində tələbələrin nəzəri kurslar keçməklə yanaşı, müxtəlif ekspedisiyalarda iştirak edib material toplamaq, öz araşdırmalarının nəticələrini rəqəmsal formaya köçürüb, təqdim etmək imkanları olur. Rəqəmsal humanitar sahəyə Gürcüstanda ilk dəfə bu il, minor (yardımçı ) ixtisas statusu verilib və cari tədris ilindən arzu edən tələbələr bu sahədə təhsil ala biləcəklər.

Qeyd edək ki, əməkdaşımız Afayət Afiq də, bu yay məktəbinin dinləyicilərindəndir.

# NATİA KOBERİDZE: SÖZ AZADLIĞI DEMOKRATİK CƏMİYYƏTİN ƏSAS MEYARLARINDAN BİRİDİR

*A.Ə: - Natia xanım, mümkündürsə, jurnalistlik fəaliyyətiniz haqqında oxucularımızı qısa da olsa məlumatlandırmaqla başlayaq.*

N.K: - Mən, Natia Koberidze 1994-cü ildən jurnalist olaraq çalışıram. Gürcüstanda fəaliyyət göstərən bütün böyük televiziyalarda, müxtəlif informasiya portallarında işləmişəm. Son olaraq Gürcüstanda ilk azərbaycandilli radio olan Agfm ilə çalışmışam. Son zamanlarda isə jurnalistlik fəaliyyətimi dayandırdığım da söylənə bilər. Çünki daha çox təhsil istiqamətində işləyirəm, jurnalistika ilə bağlı dərslər deyirəm.

*A.Ə: - Fikir bildirmək və söz azadlığı hər bir fərdin hüququdur. Bəs, ümumiyyətlə söz azadlığı fenomeni nə üçün bu qədər əhəmiyyətlidir?*

N.K: - Bəli, doğurdan da söz azadlığı fenomeni olduqca əhəmiyyətlidir. Bu, demokratik cəmiyyətlərin ən başlıca meyarlarından biridir. Fikir və söz azadlığı ona görə əhəmiyyətlidir ki, insan düşünür və düşündüyü üçün təməl olaraq fikrini bildirmək kimi bir ehtiyacı yaranır. Fikir bildirmək azadlığı məlumatın yayılması, ideyaların paylaşılması üçün vacibdir. Bunlar ümumilikdə insanlığın inkişafı deməkdir. Təsəvvür edin, insanın fikir bildirmək qabiliyyəti olmasaydı, mexaniki varlıq olardı. Fikrin, istənilən fikrin açıq şəkildə səsləndirilməsi azad olmalıdır. Məhz bu inkişafın, tərəqqinin əsas şərtlərindən biridir.

*A.Ə: - Deməli, siz söz azadlığında sərhəd olmamalıdır fikrinin tərəfdarısınız?*

N.K: - Bəli, söz azadlığında, fikir azadlığında heç bir sərhəd olmamalıdır.

*A.Ə: - Söz azadlığının qorunması Gürcüstan konstitutsiyasının 19-cu maddəsində təsbit olunub, informasiya vasitələrinin azad olması, senzuranın yolverilməzliyi qeyd edilib. Göründüyü kimi bütün bunlar qanunda həqiqətən nümunəvi şəkildə öz əksini tapıb. Necə düşünürsünüz, bu qanunun həyata keçirilməsi ilə bağlı Gürcüstanda vəziyyət hansı səviyyədədir?*

N.K: - Konstitutsiyada bu qanun olduqca yaxşı, düzgün və əsas şəkildə qeyd edilib. Söz və media azadlığı haqqında bu, həqiqətən mükəmməl qanundur. Söz və fikir azadlığına Gürcüstanda hökumət problem yaratmır. Hər halda indiyə qədər belə hal baş verməyib. Gürcüstanda heç vaxt fikir azadlığına görə jurnalistlər və ya insanlar dövlət tərəfindən sıxışdırılmayıb, təqib edilməyib. Əgər buna cəhd olsa belə cəmiyyətin reaksiyası cəld və kəskin olub. Media azaddır. Lakin, son zamanlar, yeni hökumətin formalaşmasından sonra medianın, söz azadlığının tənzimlənməsinə cəhd halları hiss edilir. Buna baxmayaraq, diskriminasiya, alçaltma, mediaya təzyiq hallarının olmaması üçün qanun qəbul edilib. Bu artıq dövlətin söz və mediya azadlığını təmin etməyə çalışdığını göstərir.

*A.Ə: - Söz azadlığına əngəl yaradılması ölkə üçün nə kimi təhlükələr yarada bilər? Xarici tərəfdaşlar və beynəlxalq cəmiyyətin gözündə Gürcüstanın imici nə dərəcədə zədələnə bilər?*

N.K: - Təbii ki, bu kimi hallar beynəlxalq ictimaiyyət tərəfindən, onun ayrı-ayrı üzvləri tərəfindən olduqca mənfi qiymətləndirilir və ölkəyə olan inamın sarsılmasına, buna müvafiq olaraq da ölkənin və dövlətin imicinin zədələnməsinə səbəb olur. Həmçinin qeyd olunan hallar, ölkə daxilində də, cəmiyyətdə də etimadın itməsinin və qarşıqlığın yaranmasının əsas səbəblərindən birinə çevrilir. Yəni istənilən halda, söz və fikir azadlığına qarşı qoyulan bu və ya digər formada maneə ölkə üçün mənfi nəticəyə gətirib çıxarır, cəmiyyət üçün təhlükə yaradır. Fikir və söz azadlığına məhdudiyyət qoyulması insanlar üçün müəyyən qrupların fikrinin qaranlıq qalması deməkdir.

*A.Ə: - Söz azadlığının məhdudlaşdırılması cəmiyyət üçün nə kimi təhlükələr gətirə bilər?*

N.K: - Bu ciddi təhlükədir. Çünki cəmiyyətdə yüzlərlə fikir mövcud ola bilər və insanlar bir-birilərinin fikirləri ilə bağlı məlumatlı olmalıdırlar. İstənilən halda, hər şey haqqında məlumatımızın olması daha çox arzuolunandır, nəinki məlumatsız olmaq. Qapalı mühit dövlət təhlükəsizliyindən fərdi təhlükəsizliyə qədər hər şey üçün təhlükə yaradır. İstənilən məhdudiyyət inkişaf, dinclik və əmin- amanlıq üçün təhlükəlidir.



*A.Ə: - "Rustavi-2" mövzusuna toxunsaq və son zamanlarda yaranan proseslərə nəzər salsaq vəziyyətin qarışıq olduğunu görmək olar. Sizcə, bunları söz azadlığına qarşı atılmış addım kimi qiymətləndirmək olarmı?*

N.K: - Əlbəttə, bu, söz azadlığına qarşı, media azadlığına qarşı atılmış çox ciddi addımdır. Bu Bidzina İvanişvilinin hakimiyyətə gəlməsinin ilk günündən başlayıb. O və komandasının üzvləri həmişə "Rustavi 2"nin mövcudluğundan duyduqları narahatlığı, narazılığı açıq şəkildə dilə gətirirdilər. Bunun səbəbi hakimiyyətə tənqidi yanaşan media üçün problem yaratmaqdır. Bu o qədər də asan məsələ deyil. Çünki, "Rustavi 2" olduqca genişmiqyaslı media təşkilatdır. O, indiyə qədər də bir çox problemdən çıxmağı bacarıb. "Rustavi 2"nin Saakaşvili dövründə də problemləri var idi, çünki təqib edilirdi və hakimiyyət ondan siyasi maraqları üçün istifadə edirdi. Bu isə təqibdən daha böyük problemdir. Bu gün elə bir vəziyyət yaranıb ki, "Rustavi 2" azaddır, müstəqildir. Onun əhatə dairəsi kifayət qədər qərbyönlüdür. Mənim fikrimcə, hələ bu da yetərli deyil. Yenə lazımdır. Bu televiziyada da insan hüquqlarının tam müdafiə olunmadığı hallar olur, lakin "Rustavi 2"dən güclü, genişmiqyaslı və qərbyönlü media vasitəsi hələlik Gürcüstanda mövcud deyil. Daha güclüsü isə, ümumiyyətlə yoxdur. Gürcüstanda mövcud olan media vasitələrinin çoxu rusiyönlüdür. Bu da hakimiyyətə sərf edir.

*A.Ə: - Media vasitələrinin rəngarəngliyi, söz azadlığının inkişafına necə dəstək olur. Müxtəlif dillərdə informasiya vasitələrinin olması nə qədər önəmlidir?*

N.K: - Nə qədər çox media vasitəsi olarsa, bu o qədər yaxşıdır. İstənilən formada, istənilən dildə. Bu həm başqa dillərdə ola bilər, həm də ölkədə yaşayan azlıqların dillərində olmalıdır. Mənfi qiymətləndirdiyim media vasitələrinin mövcud olması da çox vacibdir. Bunlar da olmalıdır. Müxtəliflik hər zaman yaxşıdır. Sadəcə olaraq bunlara dövlətin şərait yaratması pisdir.

*A.Ə: - Gürcüstanda fərqli fikir nə dərəcədə qəbul ediləndir?*

N.K: - Fərqli fikrin səsləndirilməsi əvvəl də qeyd etdiyim kimi, çox vacibdir. Lakin, onu da deməliyik ki, səslənən yeni və fərqli fikirlərə qarşı münasibət heç də birmənalı olmur. İnkişaf etmiş cəmiyyətlərdə bu problem artıq həll edilib. Ancaq, bizdə həm cəmiyyət, həm də dövlət fərqli fikri qəbul etməyə, orada müsbət yönləri görməyə hər zaman hazır olmur.

Müsahibəni apardı: Afayət AFİQ

# იენი იოლის თანამშრომელი ჟურნალისტ ნათია კობერიძეს შეხვდა

იენი იოლის თანამშრომელი ჟურნალისტ ნათია კობერიძეს შეხვდა, რომელიც 1994 წლიდან ჟურნალისტად მოღვაწეობდა. იენი იოლისათვის მიცემული ინტერვიუს დროს გამოცდილმა ჟურნალისტმა ჩვენს-თანამშრომელს საქართველოში გამოხატვისა და სიტყვის თავისუფლებასთან დაკავშირებულ შეკითხვებს უპასუხა. ნათია კობერიძემ ისაუბრა სიტყვის თავისუფლების მნიშვნელობასა და მასთან დაკავშირებით განვითარებულ მოვლენებზე. მან არაერთხელ ხაზი გაუსვა საქართველოსთვის მედიისა და სიტყვის თავისუფლების მნიშვნელობაზე. „ აზრის გამოხატვისა და სიტყვის თავისუფლება განვითარების, წინსვლისა და მშვიდობის ერთ-ერთი ყველაზე მნიშვნელოვანი პირობაა" - განაცხადა ნათია კობერიძემ. მისი თქმით, საქართველოს მთავრობა ცდილობს, რომ უზრუნველყოს ქვეყანაში გამოხატვისა და სიტყვის თავისუფლება, მაგრამ მიუხედავად ამისა შეინიშნება მედიისათვის შეფერხების შექმნის გარკვეული მცდელობები. ეს ყველაფერი კი, ქვეყნისთვის, მისი საერთაშორისო იმიჯისთვის სახიფათო და ზიანის მომტანია.

## GÜRCÜSTAN VƏTƏNDAŞLARI RUSİYALILARLA NİKAHA ÜSTÜNLÜK VERİRLƏR

Gürcüstan dövlət xidmətinin inkişafı agentliyinin məlumatına görə, bu il Gürcüstan vətəndaşlarının əcnəbilərlə bağladıqları nikahın ən çoxu rusiyalıların payına düşüb.

2015-ci ilin yanvarından 891 Gürcüstan vətəndaşı rusiyalı qadınlarla evlənib. Gürcüstanın kişi əhalisi Azərbaycanın 227, Ermənistanın 188, Ukraynanın 175 və ABŞ-ın 30 qadın vətəndaşı ilə nikaha üstünlük verib.

Öz növbəsində 465 gürcüstanlı qadın rusiyalı kişilərlə ailə qurub. Gürcüstanlı qadınlar kişilərdən fərqli olaraq rusiyalılardan sonra Türkiyə (186), Azərbaycan (105), Yunanıstan (96) və Ermənistan (63) vətəndaşlarına üstünlük veriblər.

## GÜRCÜSTANDA HƏR YÜZ QADINA 91,2 KİŞİ DÜŞÜR

Bu barədə BMT-nın məlumatında qeyd olunub. Ümumilikdə isə dünyada kişilərin sayı qadınlara nisbətən bir qədər çoxdur. BMT-nin məlumatına görə, 2015-ci ildə dünyada hər 100 qadına 101,8 kişi düşür. Kişilərin göstəriciləri 1960-cı ildən etibarən hər il artmaqdadır.

Pew Research Center-in xəritəsinə və BMT-nın məlumatlarına görə, planetimizdə qadınlar və kişilər qeyri-bərabər yayılıblar. Keçmiş Sovet ölkələrində kişilərə nisbətən qadınların sayı çoxdur. Gürcüstana gəldikdə isə, bu məlumatlara görə, qadınlar kişilərdən sayca çoxdur və hər 100 qadına 91,2 kişi düşür.

Bununla belə Asiyada, ərəb ölkələrində, Şimali Afrikada kişilərin sayı qadınların sayından artıqdır.

BMT-nin statistikasına əsasən, Latviya, Litva, Ermənistan, Belarus, Rusiya, Ukrayna və Estoniya dünyada qadınların üstünlük təşkil etdiyi ölkələrdəndir.

## 120 HƏKİM MƏSULİYYƏTƏ CƏLB OLUNUB



Səhiyyə nazirliyinin tənzimləmə agentliyinin məlumatına görə, Gürcüstanda son ilyarım ərzində pasiyentlərin ölümü ilə əlaqədar 120 həkim məsuliyyətə cəlb olunub.

2014-cü ildə məsuliyyət dərəcəsindən asılı olaraq, 40 həkimin sertifikatının fəaliyyəti bir aydan altı ayadək dayandırılıb, 65 həkim isə yazılı xəbərdarlıq alıb.

2015-ci ildə səkkiz həkimə yazılı xəbərdarlıq edilib, yeddi həkimin sertifikatının fəaliyyəti müxtəlif müddətə dayandırılıb. Gürcüstanın əmək, səhiyyə və sosial müdafiə nazirliyinin rəsmi statistikasına görə, 2014-cü ilin əvvəlindən 30 qadın doğuşda ölüb. 919 körpə ölü doğulub. İlyarım ərzində Gürcüstanda bir yaşadək 812 uşaq ölüb.

2013-cü ildə bir yaşdan beş yaşadək 169 nəfər, 2014-cü ildə 69 nəfər, 2015-ci ilin ilk yarısında isə 28 nəfər uşaq ölüb.



Sahib MUSTAFA
sahib1975.sm@gmail.com

## NEFT DÜNYA SİYASƏTİNİN TƏZYİQ VASİTƏSİ KİMİ

**Neft dünya iqtisadiyyatının ən vacib və tələb olunan resurslarındandır. Sənayenin hərəkət etməsi üçün lazım olan istilik enerjisinin əsas mənbəyi neftdir. Ona görə də dünyanın aparıcı və hegemon dövlətləri neft yataqları ilə zəngin olan dövlətləri böyük iştahla öz himayəsi altına almaqda maraqlıdırlar. Son bir neçə onillikdə dünya siyasətinin əsas helledici konturları məhz neft siyasəti strategiyası üzərində qurulmaqdadır. Dünya bazarında neftin qiymətinin ucuzlaşması və ya bahalaşması da bəzən tələb-təklif proporsiyası kimi iqtisadi amillərdən daha çox siyası motivlərlə bağlı olur. Son günlərdə "qara qızılın" "ağ su" kimi qiymətdən düşməsi səbəblərinin də arxasında böyük siyasi oyunların cərəyan etməsi durur kimi bir mülahizə yürütməmiz səhv kimi anlaşılmamalıdır.**

Ehtimal olunan variantlar içərisində ilk diqqəti cəlb edən mülahizə budur ki, bütün bunlar ABŞ başda olmaqla Qərbin Rusiyaya qarşı tətbiq etdiyi çoxsaylı embarqoların yeni dalğası kimi qiymətləndirilməlidir. İlk öncə Rusiyanın Suriyada Bəşər Əsəd diktaturasına dəstək verməsi, daha sonra Ukrainanın Krım bölgəsini işğal etməsi və Şərqi Ukraynada separatçı rejimləri dəstəkləməsi "tamaşasına" şübhəsiz ki, ABŞ və onun müttəfiqləri seyrçi qala bilməzdilər. Odur ki, hazırki siyasi çəkişmələri II dünya müharibəsindən sonra Qərb və Moskva arasında başlamış soyuq müharibənin yeni fazası kimi də dəyərləndirmək olar.

Məlum olduğu kimi Rusiya xam neft və neft məhsulları ixrac edən dövlətlərin sıralama siyahısında Səudiyyə Ərəbistanından sonra ikinci yerdə durur. 2000-ci ildən 2010-cu ilədək Rusiyanın neft və neft məhsulları ixracatında artım tempi müşahidə edilmişdir. 2012-ci ildə sözü gedən ölkənin 240 milyon ton "qara qızılı" dünya bazarına çıxarması müqabilində federal büdcə 181 milyard dollar mənfəət əldə etmişdir. Qeyd edək ki, həmin il dünya bazarında 1 barrel (159 litr) xam neftin qiyməti orta hesabla 110 dollar olmuşdur. Rusiyanın 2013-cü və 2014-cü illərdə xam neft və çeşidli neft məhsullarının ixracatından mədaxili müvafiq olaraq 283 və 212 milyard dollar təşkil etmişdir. Göstərilən statistik rəqəmlər Rusiyanın Ümumi Daxili Məhsulunun 14%-i və ümumi ixrac gəlirlərinin 54%-i deməkdir. Görünən odur ki, Rusiya neft satışlarından küllü miqdarda mənfəət əldə edir və bu, ölkənin iqtisadiyyatının ən önəmli sektorudur. ABŞ və onun müttəfiqlərinin qəbul edə bilmədiyi rus hegemoniyasının qarşısını almaq üçün yeganə yol isə Rusiyanı iqdisadi cəhətdən zəiflətməkdir. Deyilənlərə əsas kimi belə fikir yürütmək olar ki, Qərb dünyasının Moskva ilə bağlı yürütdüyü siyasi kurs bu ölkənin maliyyə qaynaqlarını daraltmaqdan ibarətdir. Məqsəd rus iqtisadiyyatının zəncirvarı iqtisadı bağlarını bir-birindən qoparmaq, başqa sözlə desək, çözülməsi müşkül dərin iqtisadi böhrana sürükləməkdir.

Əslində neftin qiymətinin düşməsi qabaqcadan proqnozlaşdırılırdı. İyulun əvvəllərində prezident Barak Obama ABŞ-ın komersiya üçün nəzərdə tutulmuş və ehtiyyatda saxlanılan 692 miliyon barrel neftini satışa çıxarmaq üçün konqresə müraciət etməsi deyilənlərə əsasdır. Digər tərəfdən bu il iyulun 14-də Altılıq ölkələri ilə (ABŞ, Böyük Britaniya, Fransa, Almaniya, Rusiya və Çin) İran arasında əldə edilmiş Vyana razılaşması da qara qızılın ucuzlaşacağına işarə idi. Razlaşma Tehrana qarşı tətbiq edilmiş neft satışı qadağasının qismən yumşaldılmasını nəzərdə tutur. Xatırladaq ki, ABŞ və Avropa Birliyi İranı qeyri-sülh məqsədlər üçün uranı zənginləşdirməkdə ittiham edərək, ona qarşı sanksiyalar tətbiq etmişdir.

**Görünən odur ki, İranın dünya neft bazarına daxil olması, neftin qiymətinin ucuz və ya bahalığından asılı olmayaraq neft ixrac etmək istəyi Rusiyanın xeyrinə deyil. Hal-hazırda dünya bazarında 1 barrel neftin qiymətinin 43 dollaradək enməsi Rusiya üçün pessimist proqnozlar verməyə əsas verir. Rus rublnun dollarla müqisədə sürətlə qiymətdən düşməsi, yüksək inflyasiya, gündəlik tələbat mallarinda qiymət artımı Rusiyanın təlatümlü zaman kəsimnə qədəm qoyduğundan xəbər verir. Kremlin bu basqılara necə, nə qədər, hansı vasitələrlə davam gətirəcəyi isə ağıllarda sual işarəsi buraxır.**

## DÜNYA KİV-İ "QARA BAZAR ERTƏSİ" HAQQINDA

Atlas agencia

### ÇİNDƏ İNDEKSLƏRİN DÜŞMƏSİ BÜTÜN DÜNYADA DALĞA EFFEKTİ YARADIB

İspaniyanın "Atlas agencia" informasiya agentliyinin redaksiyası qeyd edir ki, avqustun 24-də dünya fond bazarının çökməsinin səbəbi Çin iqtisadiyyatında baş verən geriləmədir. Bütün yay ayları Çin üçün pis olub, iqtisadiyyatın inkişafı zəifləyib, ixrac azalıb. Bu günkü indekslərin aşağı düşməsi 2007-ci ildən bəri ən pis göstəricidir və bu, bütün dünyada dalğa effekti yaradıb.

DER TAGESSPIEGEL

### BÖHRANIN GÜNAHKARI CİN YOX, AVROPA BİRLİYİDİR

Avropa makroiqtisadi tədqiqatlar institutunun direktoru Qustav Xorn hesab edir ki, böhranın günahkarı Çin deyil, son vaxtlar sabit iqtisadi siyasəti olmayan Avropa İttifaqıdır.

"Əgər Avropada iqtisadiyyat sabit inkişaf etsə idi, biz Çin bazarı üçün həyacan keçirməzdik. Biz Avropa İttifaqında iqtisadi və maliyyə siyasətinin stabilləşməsinə çalışmalıyıq ki, inkişafın əvvəlki tempini qaytaraq". Avropa İttifaqı tərəfindən Yunanıstana yardım edilməsinə baxmayaraq, "sərmayədarlar yenə də Aİ-da stabil iqtisadi mühitin olmasına inanmırlar və buna görə də investisiya qoymağa ehtiyat edirlər".

BROOKINGS

### ÇİN LİBERALLAŞMAYA HAZIR DEYİLMİŞ

Ümumdünya Banknın keçmiş böyük məsləhətçisi Brayan Pintonun fikrincə, fond birjalarında yaranmış hazırkı vəziyyətə görə devalvasiyası dünya bazarını silkələyən Çin günahkardır.

"Devalvasiya Çinin könülsüz razılaşdığı məsələdir. Onun yuanı beynəlmiləlləşdirmə və kapitalla əməliyyatların liberallaşdırma siyasəti vaxtından əvvəl baş verib. Məlum olur ki, Çinin maliyyə siyasətində daha mühüm məsələlər var imiş.

Hətta Çin iqtisadiyyatının ötəri xülasəsi göstərir ki, Çinin maliyyə sistemi liberallaşmaya hazır deyil. İstər inkişaf etmiş ölkələr olsun, istər də bazarı formalaşmaqda olan ölkələr olsun istənilən maliyyə sisteminin əsas məsələsi etibar və şəffaflıqdır. Çində hər ikisi kifayət qədər deyil".

The New York Times

### ÇİN İQTİSADİYYATINDAKI PROBLEMLƏR ÇİNLƏ ƏLAQƏDƏ OLANLARIN HAMSINDA ƏKS OLUNACAQ

İqtisadiyyat sahəsində Nobel mükafatı laureatı, New York Times qəzetinin aparıcı iqtisadi icmalçısı Pol Kruqman qeyd edib ki, baş verənlərdə təəccüblü heç nə yoxdur. "Çin qlobal ixracatçıdır, onun iqtisadiyyatındakı problemlər onunla bağlı olanların hamsında əks olunur. Amerika özünü və Çini kredit asılılığında qoyur, sonra Çində xoşagəlməzlik baş verəndə onları geri tələb edir və bununla da hamımızı böhrana sürükləyir. Istənilən belə vəziyyət tarif faizlərinin artmasına gətirib çıxarır, lakin biz bunun əksini müşahidə edirik".

Bloomberg

### MİLYARDERLƏR BİR HƏFTƏ ƏRZİNDƏ 182 MİLYARD DOLLAR İTİRİBLƏR

Dünyanın ən zəngin adamları birjalarda indekslərin aşağı düşməsi səbəbindən bir həftəyə 182 milyard dollar itiriblər.

"Bloomberg" xəbər verir ki, dünyanın 400-ə yaxın varlı adamının sərvəti bu müddət ərzində 6,3 faiz azalıb.

Avqustun 21-də "Bloomberg Billionaires İndex" reytinqində yer alan milyarderlərin sərvəti 76 milyard dollar azalıb. Bu, ABŞ-ın əsas birja indekslərinin son 4 il ərzində ən ciddi ölçüdə aşağı düşməsi nəticəsində baş verib.

Milyarderlər bir həftəyə 182 milyard dollar itirsələr də bu, onların sərvəti fonunda cüzi görünür. Siyahıya daxil edilmiş zənginlərin ümumi sərvəti 3,98 trilyon dollardır.

"Bloomberg" bildirib ki, ən çox itirən "Berkshire Hathaway" şirkətinin əsas səhmdarı Uorren Baffetdir. O, 3,6 milyard dollar "kasıblayıb". Baffet ən zəngin adamlar siyahısında 64 milyard dollarla üçüncü idi. Biznesi energetika sektoru ilə bağlı olan milyarderin kapitalı neftin kəskin ucuzlaşması nəticəsində son dövrlər 15,2 milyard dollar azalıb.

Honkonq birjasında indekslərin aşağı düşməsi və Çin yuanının devalvasiyası nəticəsində Çinin 26 ən zəngin adamı bir həftədə 18,8 milyard dollar itirib.

MarketWatch

### AMERİKANIN DOW JONES BİRJA İNDEKSİ ANTİREKORD VURUB

ABŞ-ın Dow Jones Industrial Average birja indeksi dörd gün ərzində 200 bənd geriləyib. Marketwatch nəşrinin məlumatına görə, birja öz tarixi ərzində belə göstərici sərgiləməyib.

Avqustun 24-də hərracların bağlanmasından sonra indeks tarixi rekord vuraraq, 200 bənd geriləyib.

Avqustun 25-də ABŞ birjaları kəskin çökmədən sonra yüksəlmə ilə açılıb.

Avqustun 24-də Çin birjası 8,5% düşüşlə bağlanıb. Bir çox treyderlərdə Çin iqtisadiyyatının zəifləməsi və bazarların qeyri-müəyyənliyinin yaratdığı təlaş müşahidə edilib. Bu təlaşa bütün dünya bazarları təslim olub.

"Qara bazar ertəsi" sindromu ölkəmizdən də yan ötməyib. Gürcüstan valyutası ABŞ dollarına münasibətdə dəyərini 24-25 avqustda 3,5% itirib. Xoşbəxtlikdən öz mövqeyini avqustun 26-da 1,6% möhkəmlədə bilib.

# GÜRCÜSTAN İNSAN AZADLIĞI İNDEKSİNDƏ 48-Cİ YERİ TUTUR

Gürcüstan insan azadlığı indeksində 150 ölkə arasında 48-ci yeri tutur. Vaşinqton, Katon, Vankuver, Freyzer və Fridrix Nauman Fondu institutları 150 ölkədə tədqiqatlar aparıblar. Şəxsi, vətəndaşlıq və iqtisadi sahələr üzrə qiymətləndirmələri nəzərə alan Indeks fərdi azadlıq səviyyəsini əks etdirir.

Verilən məlumatlara görə, Gürcüstan regionda birinci yeri tutur.

Bu reytinqdə Ermənistan 53-cü, Ukrayna 74-cü, Rusiya 111-cidir.

İnsan azadlığı indeksində Honkonq birinci yeri tutur. Onun ardınca isə İsveçrə, Finlandiya gəlir. ABŞ isə reytinqin 20-ci pilləsindədir.

# MQEBRİŞVİLİ: GÜRCÜSTAN POLİSİ VƏZİFƏSİNİN ÖHDƏSİNDƏN UĞURLA GƏLİR



Şübhə yoxdur ki, Gürcüstan polisi özünün bütün vəzifələrinin öhdəsindən uğurla gəlir. Bunu "Kviris Palitra" həftəliyinə müsahibəsində daxili işlər naziri Qeorqi Mqebrişvili bəyan edib.

Nazir bildirib: "Bizim üzərimizə DİN bölünənədək olmasa da, indi də böyük məsuliyyət düşür. Bizim məsuliyyət sahəmiz ictimai təhlükəsizliyi və qayda-qanunu qorumaqdan ibarətdir. Bu mərhələdə biz vəsait və imkanlarımızın tələbata cavab verib-verməməsini, hansı sahənin gücləndirilməsini, harada yenidən bölüşdürmə həyata keçirilməsini müəyyənləşdiririk. Ilkin qiymətləndirmə əsasında demək olar ki, bizim narahatlığımıza əsas yoxdur, polis öz funksiyasını uğurlu şəkildə yerinə yetirir. Cəmiyyət polisə arxalandığından, bizim onu məyus etməyə haqqımız yoxdur".

Nazir müxalifətin DİN-nə köhnə rüşvətxor kadrların qayıtması fikrini əsassız adlandırıb. "Vətəndaşlara müraciət etmək istəyirəm ki, bizə belə faktları təqdim edin və görəcəksiniz, biz hansı addımları atırıq. Kimlərinsə rüşvətxorluğu haqqında söhbətə gəlincə, sübutsuz bu, boş mülahizədir və mənim üçün qəbul olunmazdır. Düşünürəm ki, hazırda korrupsiya polis üçün problem deyil. Buna baxmayaraq, yenə də qabaqlayıcı tədbirlər intensiv şəkildə aparılır", – Qeorqi Mqebrişvili bildirib.

## KOMMUNİZM CİNAYƏTLƏRİNİN TƏHQİQATI ÜZRƏ QURUM YARADILIR

Avqustun 23-də Molotov-Ribbintrop paktının bağlanmasının ildönümündə Tallində işə başlayan Ümumavropa konfransında səkkiz dövlətin nümayəndələri kommunizm cinayətlərini təhqiq etmək üçün beynəlxalq qurumun yaradılmasının vacibliyi haqqında birgə bəyanatla çıxış etmiş və bu məsələ üzrə ekspert qrupunun yaradılmasını qərara almışlar. Birgə bəyanatla Estoniya, Latviya, Litva, Polşa, Çexiya, Slovakiya, Macarıstan və Gürcüstan ədliyyə nazirliklərinin nümayəndələri çıxış etmişlər.

"Kommunizm və nasizimin cinayətləri nəticəsində milyonlarla insan ya həlak olmuş, ya da yaxınlarının ölümünü görmüşdür. Eston xalqı da böyük itkilər verib. Əgər Estoniyada kommunist işğalı bir nəsil də davam etsəydi estonların bir xalq kimi məhv olması qaçılmaz idi" – Estoniyanın ədliyyə naziri Urmas Reynsalu deyib.

Reynsalu belə bəyan edib ki, nasizmin cinayətləri Nürnberq beynəlxalq tribunalında qiymətləndirildiyi halda, kommunist rejimlərinin cinayətləri indiyədək heç bir beynəlxalq təşkilatın kompetensiyasına daxil edilməyib. Buna görə də Estoniya kommunizm cinayətlərinin təhqiqatı üçün beynəlxalq bir qurumun yaradılması haqqında beynəlxalq razılaşmanın bağlanmasını təklif edir.

## ONE CAUCASUS FESTİVALI AZƏRBAYCAN, GÜRCÜSTAN VƏ ERMƏNİSTAN GƏNCLƏRİNİ BİR ARAYA GƏTİRDİ

Azərbaycan, Gürcüstan və Ermənistan gəncləri avqustun 27 - 29-da Marneuli munisipalitetinin Tserkavi kəndində beynəlxalq One Caucasus 2015 festivalında görüşüblər.

"Festivalın əsas məqsədi Qafqazda yaşayan gənclər üçün ruhlandırıcı, dinc və təhlükəsiz mühitin yaradılmasından ibarətdir. Festival rəmzi olaraq Gürcüstan ərazisində Azərbaycan və Ermənistan sərhədləri yaxınlığında, Marneulinin Tserkavi kəndində keçirilir" – təşkilatçıların saytında bildirilib.

Təşkilatçıların məlumatına görə, festivalın musiqili hissəsindən əlavə, festival çərçivəsində Azərbaycan, gürcü və erməni uşaqları üçün mədəni-maarif tədbirləri də planlaşdırılıb. Arxitektura üzrə ustad dərsləri, musiqi treninqləri və




kino nümayişlər də nəzərdə tutulub.

Azərbaycan, Gürcüstan və Ermənistan ifaçıları və musiqi qruplarından başqa festivalda Polşa və Seneqal musiqiçiləri də öz yaradıcılıqlarını nümayiş etdiriblər.

Layihəni Marneuli munisipaliteti və Polşa Respublikasının Mədəniyyət və milli irs nazirliyi birgə maliyyələşdirib.

## AZƏRBAYCAN VƏ GÜRCÜSTAN BAYKERLƏRİ BAKI-TBİLİSİ-QARS LAYİHƏSİNİ TƏBLİĞ EDİBLƏR

Baku HOG Azerbaijan qrupunun və ANS şirkətinin təşkilati dəstəyi ilə Azərbaycan və Gürcüstan baykerlərinin iştirakı ilə motosiklet yarışı keçirilib. "Böyük yolun yolçuları" adı altında keçirilən iki günlük yarışmanın iştirakçıları min beş yüz kilometr məsafə qət ediblər.

Bu təşəbbüsün əsas məqsədi 2016-cı ildə istifadəyə veriləcək Bakı-Tbilisi-Qars dəmiryolunun təqdim olunması idi.

Yarışma iştirakçıları keçdikləri yaşayış məntəqələrinin sakinlərini yeni dəmiryolunun əhəmiyyəti barədə məlumatlandırıblar.

Afayət AFİQ



# DƏYƏRDƏN DÜŞƏN LARİNİN FONUNDA BAŞ VERƏNLƏR

**Lari, yəni milli valyutamız hər keçən gün bir az daha dəyərdən düşür. Arxasını təxmin etmək isə heç də çətin deyil. Həyat bahalaşır. Bu mövzudan başlayıb qanınızı qaraltmaq istəməzdim, ancaq acı gerçəklər onlardan qaçınca daha da böyüyür, ona görə də bəlkə danışmaq ən yaxşısıdır. Bu yaxınlarda, bir yazarın sosial şəbəkədə statusunu oxumuşdum, deyir ki, bəzi ağrılar insanda qulaq kimi, burun kimi anadangəlmə və təbii olur. Bunlar ağrıları ilə doğmalaşan bir yazarın sözləri idi. Ürək ağrıdıcı olsa da belədir. İndi mən başqa ürək ağrıdıcı haldan danışmaq fikrindəyəm. Bizlərin həyatında da qulaq, burun kimi anadangəlmə problemlər olur. Maddi problemləri nəzərdə tuturam. Deməli həyat bahalaşır, ölkəmiz inkişaf yolundadır şüarlarının kölgəsində biz hər gün bir az daha mürgüləyirik. Tərəqqi davam etmədədir, irəliləyirik kimi cümlələr bizdə diş həkiminin vurduğu keyləşdirmə dərmanının təsirini yaradır. Hər gün geridə qalandan daha ağır gəlir və s. Bu cümlələri sonsuza qədər uzatmaq olar. O qədər uzatmaq ki, sonu başlanğıcına qarışar. Adı çəkilən hallarda isə insanların bir qismi həyata və onun zülümlərinə təslim olub inildəməklə məşğuldur. Bəziləri isə dişlərini itiləyib, hardan nə qopartsam qənimətdir deyə düşünür. Həyatda sağ və qarnı, gözü tox qala bilmək üçün hərə bir yolun ucundan tutub.**

Burada etiraz edəcəyim heç bir şey yoxdur, özümə də bu haqqı vermirəm. Amma və lakin həyat qəddarlaşdıqca, insanlar da qəddarlaşır. Zahirən yox, daxilən. Necə ki, güclü külək torpağı alt-üst edir, həyat və onun dözülməz şərtləri də insan ruhunun altını üstünə çevirir. Razıyam. Başa düşürəm. Lakin vicdanı da unutmamaq lazımdır. İnsan olmağı da... Bir neçə misal deyəcəm, əminəm bu misalların timsalında gözünüz önündə ərtafınızda, kəndinizdə neçə-neçə insan canlanacaq. Təsəvvürümüzdə diriləcək insanların hamısının vicdanı larinin məzənnəsi ilə düz mütənasibdir. Düşəndə düşür, qalxanda qalxır. İnsan doğru yoldan caymağa məcbur olur. Yox, belə demək daha düzgün olar : məcburiyyət yolundan azmış insan üçün bəhanə olur. Südə su qatıb satan qəhramanları kinolarda görmüşük, ancaq kim sübut edə bilər ki, onlar həyatda yoxdur? Əlbəttə, heç kim. Bütün işlərini iki yerə ayıran, yarısını vicdan çərçivəsində, yarısını vicdandan kənar görən adamlar yoxdur deyirsiniz? Özlərinə güzgüdən baxanda sifətlərinə zillənən gözləri yummaq üçün, üzlərinə tüpürmək üçün can atan ikinci özləri susduran adamlar azdırmı məgər? Lari dəyərdən düşür, borcları, xərcləri hər gecə yuxularına girir. Buna görə də çarəni başqa şeylərdə görür. Halaldan azmaqda görür. Və batır, batırır.Vicdanın üstündə başqa şeylər əkir.

Həyatın problemləri insanda mənəvi çətinliklərə səbəb olur. Əslində əksi də ola bilər, məhz mənəvi çatışmazlıqlarımız maddi yoxluqlara nədən olmuş ola bilər. İnsan bir az ağıllı davransa, bəlkə heç bir çətinliyə düşməz. Bunu edən insanlar var. Lakin, ağıllılığı kələkbazlıqla qarışdıranlar da yetərincədir. Pulunuzu alıb verməyən, "verə bilməyən", ayağını yorğanından çox uzaqlara uzadıb sonra başlı-ayaqlı çöldə qalanları hamımız tanıyırıq. Kim bilir, neçəmiz elə üçüncü şəxsdə danışdığımız onlardan biriyik. Sadaladığım insanlar həyatı alverə döndərənlərdir. Vicdanın altında və üstündə alver edirlər. İnanmıram ki, hər şey yolunda olsa o insanların niyyəti düz olaydı. İnsanın gərək qanında ola. Nənələrimizin bu deyimi də hər zaman özünü doğrultmur, qan da hər şeyi həll etmək iqtidarında deyil, lakin yenə də gərək insanın qanında ola...

**Vicdanın beşiyi-məzarı əbədiyyətdirsə, onda vicdansızlıqlardan qorxmağa da dəyməz. Tez, ya gec ədalət yerini tapacaq. Ən azından inanmaqda fayda var. Hər şeyin yaxşı olacağına inanmaqda və ümidli olmaqda fayda var... Lari bahalaşacaq, hər kəs bank adlı edam kəndirindən xilas olacaq. Vicdanlar, insanlıqlar yenidən cücərəcək. Buna inanmaqdan ayrı yol yoxdur. Yoxsa gərək, hərə özü üçün bir intihar növü seçib bəyənə...**



Hacı Bəkiroğlu
hacibakir@mail.ru

# CƏHALƏT DÖVRÜNÜN İNSANINDAN FƏRQLƏMƏYƏN MÜASİR İNSAN

**Tarixi səhifələdiyimiz zaman yer üzündə yaşamış insanların ən cahillərinin və yaşanmış günlərin ən qaranlığının İslamdan əvvəki dövrə, yəni cəhalət dövrünə təsadüf etdiyinin şahidi oluruq.**

Və bir də bunun əksi olan, yenə yer üzünə gəlmiş-keçmiş insanların ən xoşbəxt, ən mədəni, ən dinc günlərini də, İslamın gəlişiylə şərəf qazanan Səadət Əsrində görürük.

Bu, bir-birinə zidd olan həyat tərzi, eyni dövrdə meydana gəlir. 23 İllik bir zaman dilimi, quldurları səhabəyə çevirir. Dünənə qədər bütə sitayiş edənlər sitayiş etdikləri bütləri ayaqlar altına atarq, tapdalayırlar. Öz doğma qızlarını diri-diri torpağa basdıran insanlar İslamla tanış olduqdan sonra qadın və insan haqlarını dünyaya yayan insanlara çevrilirlər. Öldürdükləri insanların sayıyla cəmiyyətdə üstünlük qazananlar, qürurlananlar artıq insanı yaşatmağa və insanlığı yaşatmağa səfərbər olurlar.

İslamdan əvvəlki zamanlarda insanlar qapqara düşüncələriylə qapqara bir həyat yaşayırdılar. Qadınları çılpaq gəzib, yalnız kişilərin şəhvətinə xidmət edirdilər. İnsanlar dünya malı ilə öyünür, axirətə heç bir pay buraxmırdılar. Lat, Menat və Uzza kimi bütlərə tapınır, onlardan kömək gözləyirdilər. Ancaq həzrəti peyğəmbərin gəlişiylə bu cəhalət, bu qara zülmət aydın bir səhərə çevrildi. İnsanlar xoş, firavan həyat sürməyə başladılar. Allaha, Qurana, Rəsulullaha sarılıb özlərini bu bataqlıqdan qurtardılar. Nəinki özlərini, həttta qiyamətə kimi yer üzünə gələcək insanları düşünərək, heç bir qarşılıq, heç bir əvəz gözləmədən dünyanın dörd bir yanına dağıldılar ki, onlardan sonra gələcək nəsillər o cəhaləti yaşamasınlar. Ancaq bizlər bu gün o insanların yolundan üz çevirib, yenə cəhalətə, zülmətə üz tuturuq. Bəli, bu günkü dünyamız heç də İslamdan öncəki cəhalət dövründən geri qalmır. Çünki bu gün cəhalət dövründə olduğu kimi kişilərimiz qadın, içki və qumar düşkününə çevrilməkdədirlər. Bu gün qadınlarımız yenə açıq-saçıq, yarıçılpaq geyimləri ilə küçədə çox rahat halda dolaşa bilirlər. Bəlkə bu gün Lat və Uzza yoxdur, amma onların yerini dilək ağacları, cadu-pitiklər, saxta inanclar və sair bu kimi xürafatlar tutur.

Ətrafımızda baş verənlərə bir qədər diqqət yetirsək, görərik ki, İslamiyyətdən əvvəlki cəhalət dövrü ilə müqayisə etdikdə bu günümüz cəhalət adlandırdığımız həmin zaman kəsimindən heç nəyi ilə fərqlənmir, az qala onu təkrarlayıb, onunla eynilik təşkil edir. Sual vermək istəyirsən ki, tarix təkrarmı olunur, bəşəriyyət çıxdığı bataqlığa yenəmi batmaq istəyir? Oğurluq, rüşvət, yalançılıq və hər növ çirkin davranışlar dəhşətli bir həddə, dözülməz bir mərhələyə çatmayıbmı?

Cəhalətin ana qaynaqlarından biri də savadsızlıq və biliksizlikdir. Nə yazıq ki, valideynlər bu gün övladlarını elmə, elmlənməyə yönləndirmək əvəzinə onları qazanc dalınca göndərirlər. Bunun isə əsl fəlakət olmasını söyləmək belə yersiz görünür.

Günümüzün bəzi insanları eynən cəhalət dövrünün insanları ilə eyni məntiqi, eyni düşüncəni daşıyırlar. Çünki müasirlərimiz də cəhalət dövrünün insanlarından geri qalmayaraq, "istək və həvəslərini ilah edərək" onların arxasınca qaçırlar.

Cəhalət dövrünün insanları haqq-hüquq tanımaz, gücsüzü və yoxsulu əzərdilər. Günümüzün sözdə güclü sayılan insanları, eyni şəkildə haqq və hüquqdan uzaq olaraq zəifləri, gücsüzləri əzməklə məşğuldurlar. Halbuki peyğəmbərimiz (s.ə.s.) tövsiyə edərək belə buyurur ki: "Şübhəsiz ki, Rəbbinizə qovuşacaqsınız. O zaman etdiyiniz bütün işlərdən hesaba çəkiləcəksiniz. Ey insanlar! Ağlınızı başınıza yığın, məndən sonra bir-birinizin boynunu vuracaq şəkildə cəhalətə, vəhşiliyə düşərək (cahiliyyət dövrünə) dönməyin."

**Elə həzrəti peyğəmbərimizin bu tövsiyyəsindən çıxış edərək, deyək ki, ziyanın yarısından qayıtmaq da xeyirdir. Bəlkə cahiliyimizdən əl götürüb, haqq olanın yanına qayıdaq?!.**

# GÜRCÜSTAN CƏMİYYƏTİ MƏDRƏSƏNİN FƏALİYYƏTİNDƏN QORXMAMALIDIR



Gürcü cəmiyyəti Gürcüstanda mədrəsələrin fəaliyyətindən qorxmamalıdır. Belə ki, onun şagirdləri tolerantlıq və mehriban qonşuluq öyrənəcəklər. Bu barədə Bütün Gürcüstan Müsəlmanlar idarəsinin Qərbi Gürcüstan müftisi Beqlar Kamaşidze deyib.

2014-cü ilin sonlarında müsəlman icmasının Kobuletidə mədrəsə tikmək planını yerli əhali etirazla qarşıladı, hətta binanın qapısına donuz başı da asdılar.

"Cəmiyyət bizim nə etdiyimizi mütləq bilməlidir, mədrəsədən qorxmamalıdır. Bir çox adamlar bu sözü çox təhlükəli hesab edirlər, mədrəsə isə dini məktəbdir, orada bizim uşaqlar gürcü mentalitetinə uyğun, əlbəttə, radikal yox, ənənəvi islama görə tərbiyə olunacaqlar" – Kamaşidze deyib.

Müfti bildirib ki, düzgün tərbiyə nəticəsində gənclərin "İslam dövləti" kimi qruplaşmalara qoşulmasından qaçmaq mümkündür.

Məlumdur ki, Pankisi dərəsindən Suriyaya çox sayda Gürcüstan vətəndaşı gedib. Son məlumatlara görə, "İslam dövləti" tərəfində hərbi əməliyyatlarda 14 Gürcüstan vətəndaşı həlak olub.

"Biz məhz bu problemlər üzərində işləyirik. Biz uşaqları ənənəvi islam üzrə tərbiyə etməyə çalışırıq ki, onlarda ədavət olmasın, onlar qonşuluq, dostluq şəraitində yaşasınlar və öz həqiqi dinlərinə inansınlar. Biz ona çalışırıq ki, ölkəmizdə sülh olsun" – Kamaşidze qeyd edib.

Bir neçə ay qabaq Batumidə üçmərtəbəli mədrəsə binası müsəlman icmasına verilib. Gürcüstanın baş naziri İrakli Qaribaşvili bu barədə yerli hakimiyyət orqanlarına müvafiq tapşırıq verib.

Binada təmir işləri başlasa da, mədrəsənin dəqiq açılma tarixi hələ bəlli deyil. 30-40 nəfər şagird üçün nəzərdə tutulmuş məktəbdə şagirdlər də, tələbələr də oxuyacaqlar. Müəllimlər xüsusi hazırlıqdan keçəcəklər.

Burada yalnız dini dərslər deyil, Gürcüstan tarixi, gürcü dili və ədəbiyyatı dərsləri də tədris olunacaq.

Gələcəkdə Gürcüstan paytaxtında da mədrəsə meydana çıxa bilər.

Gürcüstan hökumətinin qərarı ilə, məscidlərin müsəlmanların mülkiyyətinə verilməsi prosesinə başlanılıb. Artıq 70 məscid idarənin balansında qeydiyyatdan keçib, hələ 240-a yaxın məscidin qeydiyyatı qalıb.

Müftinin iqamətgahı Batumidə mədrəsənin yaxınlığında yerləşir. Bina avqustun sonunadək müsəlman icmasına veriləcək.

## GÜRCÜSTANDA PEDAQOQLARIN ƏMƏK HAQQI 14% ARTIRILIR

Təhsil və elm nazirinin müavini Liya Qiqauri məlumat verib ki, sentyabrın 1-dən Gürcüstanda məktəb müəllimlərinin baza əmək haqqı 14% artırılaraq, 355 lari (150 dollardan artıq) təşkil edəcək.

"2015-ci ildən müəllimlərin peşəkar inkişafı və mənsəb yüksəlişinin həyata keçirilməsinə başlanılır. Məhz buna görə, bu sxemə əsasən müəllimlərin əmək haqqında artım baş verir. Həm baza əmək haqqı, həm də ona əlavə artır" – Qiqauri bildiriib.

Buna görə Gürcüstan təhsil nazirliyi 19 milyon lari (8 milyon dollardan artıq) ayırıb. Bundan başqa 1 aprel 2016-cı ildən müəllimlərin əmək haqqı daha 50 lari artacaq və artıq 405 lari (171 dollardan çox) təşkil edəcək.

Pedaqoqların əmək haqqı və əlavələr onların ixtisasından, stajından, işinin ağırlığından, saatlarının sayından, işinin xüsusiyyətindən və sinfinin tipindən asılıdır.

"Məsələn, böyük müəllim statuslu pedaqoqun tam dərs yükü (həftədə 18 saat) olarsa, minimum əlavə 160 lari (67,8 dollara yaxın) təşkil edəcək.

Əgər pedaqoq tam dərs yükü ilə işləməyəcəksə, müvafiq olaraq həm maaşı, həm də əlavəsi azalacaq. Bununla belə əlavənin azalması sinif rəhbərlərinə aid edilməyəcək.

# TƏHSİL NAZİRLİYİ QƏBUL İMTAHANLARININ MODELİNİ DƏYİŞİR




Gürcüstan təhsil nazirliyi ali təhsil müəssisələrinə qəbul üçün imtahanların modelini dəyişməyi planlaşdırır. Nazir Tamar Sanikidze bəyan edib ki, mərkəzləşdirilmiş imtahan modeli saxlanacaq, lakin bu imtahanlar məktəb səviyyəsində keçiriləcək. Məktəblərdə maddi-texniki baza və yüksək keyfiyyət olmalıdır. Onun sözlərinə görə, dəyişikliyin detalları hələ məlum deyil, nazirlik konsepsiya üzərində yeni işləyir. Nazir qeyd edib ki, vahid milli imtahanlar sisteminə keçid öz dövrününün ehtiyacından, xüsusilə də korrupsiya ilə mübarizədən doğmuşdur.

"Bu sistemlə təhsil sistemində gerçəkdən korrupsiya aradan qaldırıldı. Ancaq bu o demək deyil ki, bu sistem təkmilləşmə və dəyişiklik istəmir. Növbəti akademik ildə mövcud imtahan sistemi dəyişməyəcək. Bu, təxminən 2017-2018-ci illərdə baş verəcək" – Sanikidze deyib.

Nazirin sözlərinə görə, dövlət ali məktəblərə maliyyələşmənin elə sxemini təklif etməlidir ki, ali təhsil müəssisələrinin əsas məqsədi keyfiyyəti təmin etmək olsun. Məqsəd yaxşı tələbələr yetişdirmək olmalıdır. Nəticədə tələbələrin təhsil haqqı artmaya bilər, ancaq dövlət tərəfindən universitetlərin maliyyələşməsində artım ola bilər.

# YENİDƏN DOĞULMAQ
*(hekayə)*



**Kamuran**

...ətrafına yığılmış qələbəliyin anlamadığın dildən danışması qəlbinə çox güclü toxumlar sərpir və onları anlamamağa davam etdikcə, cücərən toxumun kökü olduqca dərinlərə işləyir.

Kök enməməli yerlərə düşəndə isə sızıltılar, çılğına çevirən sancılar əmələ gəlir. Adı gedən ağır sancılardan sağ qurtula bilsən, əsla bir daha həyata eyni gözlə baxa bilməzsən; bu mümkün deyil, çünki, sancılar gedərkən həyatı torlu göstərən o pərdəni də aparırlar. Yaxşı, gizlətmirəm... ilk başlarda gözlərin elə qamaşır ki, işığa çıxa bilmirsən; duyğu orqanların və idrak sistemin elə həssaslaşır ki, həqiqət sənə dalayıcı gəlir, səni incik qılır.

Bəs sən yenidən doğmağı nə bilirdin? Bax, duyğuların həssaslıqdan az qalır qəlpələnə; ağlın, şüurun, anlağın elə qıcıqlanır ki, varlığın göynəyir: bu heç işlənməmişlikdir, "qıcır-qıcır" olmaqdır. Sonra isə, adi bir şəkildə, buna alışmağa başlayırsan.

Artıq qəbul etdiyin, labüd olan həyatın qıcıqlandırıcı görünüşünə alışmağa çoxdan başlamış olursan və keçmişlə gələcəyin ortasında qapana qısılmış varlığın üçün bu heç də qeyri-adi gəlməməyə başlayır.

Yıxılanda orası-burası inciməsin deyə dörd yanına pambıq bağlamış adamlar, belə adamları çox kobud və əzazil sayarlar; çünki, xasiyyətləri birbaşadır, dolayı deyil; buna nisbətən varlıqları çox dolambaclı və dolam-dolaşıqdır.

Düşünsənə, hisslərin o qədər həssasdır ki, musiqinin qulağına necə toxunduğunu, rənglərin gözlərinə necə sığal çəkdiyini duya bilirsən; öyrəndiyin hər hansı bir şey yaddaşında bəzən elə xoşagələn yer edir və ya bəzən elə ağır və dözülməz olur ki, adətən onu yaddaş divarlarına toxunduğunu hiss edə bilirsən.



# BİR İÇİM SU KİMİ İSTƏ
*(esse)*



**Vüqar Vəkiloğlu**

İnsanın istəkləri olduqca çox olur. Ancaq bu istəklərin böyük bir qismi insanın daxilində qalır və bu istəklərin az bir qismi insanın dilinə gəlir. Bunu aysberqin görünən və görünməyən qisimləri kimi təsəvvür etmək olar. Daxilimizdəki istəklərə passiv, dilə gətirdiyimiz istəklərə isə aktiv istəklər deyə bilərik. Bəs görəsən insan övladı nəyi necə istəmək lazım gəldiyini həqiqətən hər zaman bilirmi? Əminliklə deyə bilərəm ki, ətrafımdakı insanların əksəriyyəti bilmir. Passiv istəklərimiz həyata keçmələri üçün məsuliyyətli olmağımızı tələb edir. Məsələn, bir insandan haqqın olmadığı halda yüksək məbləğdə pul tələb edə bilməzsən, buna görə də bu və buna bənzər istəklərimizi passiv olaraq daxilimizdə saxlamağımız məntiqə uyğundur. Ancaq yüksək məbləğdə pulu əldə etməyimiz üçün məsuliyyətli olmağı da gərək unutmayaq. Yəni hamımızın bildiyi kimi, nəyi necə istəmək lazım gəldiyini düşünməlisən, işləməlisən və bu günün işini qətiyyən sabaha buraxmamalısan.

...Yüksək ehtimalla, bizim əksərriyyətimiz içmək üçün başqlarından su tələb etmişik və buna görə zərrəcə nə utanc, nə də ki, qorxu duymuşuq. Hətta demək olar ki, özümüzü daha əmin və təhlükəsiz hiss etmişik. Bəs nəyə görə başqalarından su tələb etmək bu qədər asan olduğu halda, yeməli nəsə tələb etmək olduqca çətin, olduqca utandırıcıdır? Yenə aydın məsələdir ki, bunu insanlar öz təhtəlşüurlarında yaşamağa qadir olmamaq, ailə saxlamağı bacarmamaq (ailənin başçısı üçün), ehtiyac içində olmaq və cəmiyyətdən geridə olmaq kimi şərh edirlər. Allahın suyu çoxdur (istəyən təbiət də adlandıra bilər), cəmiyyətdə su istəmək qayət təbii, su verməmək isə olduqca ayıb və bəyənilməyən haldır. Bütün dinlərin, bütün icmaların nümayəndələri vaxt olub susuzlayıblar və suyu olandan su istəyiblər, çünki susuzluqdan ölməmək üçün tək çıxış yolu var idi, o da su içmək idi. Bəlkə elə buna görədir ki, dinlərin əksəriyyəti insanların su istəyinə qarşı həssasdır. Və yekun olaraq öz istəklərinizi diqqətlə analiz edin. Əgər belə etsəniz görəcəksiniz ki, həyatda bir çox şeyi istəmək bir içim su istəmək qədər təbiidir. Hətta bu sizin haqqınızdır. Ola bilsin ki, siz haqqınız olanı istəməkdən məhrum edən cəmiyyətə qarşı üsyanla dolacaqsınız, olsun...





*P.S. Passiv istəkləri də iki qismə bölmək olar: passiv və ən passiv. Ən passiv istəklərə isə misal olaraq özünü ifadə etmək və ya öz düşüncələrini yazmağı göstərmək olar. Bunu da ki, bizim əvəzimizə heç kim yerinə yetirəsi deyil.*

# ŞEİRLƏR



**Azər Musaoğlu**

**SÖZ**

Döşəməyə düşüb çırpınırlar
ağlayan uşağın gözyaşlarındakı
qırmızı balıqlar
Söz akvarium olur.

Bir ərəb qəmini
ölmüş dəvəsinə yükləyib çəkir
Söz səhra olur.

Sahildə dayanan qocanın
gözlərində bir gəmi batır
Söz dəniz olur.



Qadının əlləri
quş olub göylərə uçur
Söz səma olur.

Adam sona çatıb
əvvəlinə qayıdır
Söz torpaq olur.

Tanrı danışanda
Söz kitab olur.

**MEBEL ADAM**

sonra
lap sonra
mən özüm mebel oldum yavaş-yavaş...
məsələn,
soyuducu oldum
isti xatirələri soyutmaq üçün,
buz dolabımda dondurdum hisslərimi.
məsələn,
soba oldum
soyuq ürəkləri qızdırmaq üçün
odun kimi yandırdım əllərimi...
paltaryuyan maşın oldum
yudum,
yudum günahlarımı.
ütü olub vicdanımı ütülədim,
hamarladım qırışlı fikirlərimi.
bəzən bıçaq itiləyən,
bəzən də bıçaq oldum
kütləşəndə öz-özümü itilədim.
bədən güzgüsü olub
özümü göstərdim mənə baxanlara,
lampa da oldum,
şam da...
gündüz də yandım, axşam da.
üzərimdə yeriyənlər də oldu,
əlləri çatmayanlar da –
döşəmə də oldum, tavan da, dam da.
stol da oldum
üzərimdə yedilər, içdilər...
ev oldum içimdən köçdülər.
bircə
divar olub soyuqqanlıqla susa bilmədim,
bir də
asılqan olub özümü-özümdən asa
bilmədim.

***Qəzetimizin bu səhifəsinin tərtibatında rəssamlardan Əli Əliyevin, Türkan Mustafayevanın və Anaxanım Şamilovanın rəsmlərindən istifadə olunub. Növbəti saylarımızda da yaradıcı gənclərin işlərinə müraciət edəcəyik.***

HAQQIN SÖZÜ-SÖZÜN HAQQI.

# Yeni YOL

31 avqust 2015-ci il
№006 (06)

yeni_yol@mail.ru | İCTİMAİ QƏZET | "იენი იოლი" საზოგადოებრივი გაზეთი | qəzet 17 iyun 2015-ci ildən nəşr olunur

## "ƏLİ VƏ NİNO" ABİDƏSİ SINAQ REJMİNDƏ İŞLƏYİR

Batumi bulvarının direktoru Qeorqi Zirakaşvili avqustun 31-də bildirib ki, "Əli və Nino" abidəsi yenidən birləşdirilsə də, məşhur hərəkət edən heykəl hələlik sınaq rejmində işləyir.

"Əli və Nino" abidəsi son illər Batuminin vizit vərəqəsinə çevrilib. Abidənin zədələnməsi haqqında xəbər Gürcüstanın sosial şəbəkələrində bomba kimi partlamışdı. Bunun köçürmə zamanı trosun qırılması səbəbindən baş verməsi barədə rəsmi açıqlama verilməsinə baxmayaraq, sosial şəbəkə istifadəçiləri və müxalifət bəyan edirlər ki, bu hakimiyyətin qəsdən törətdiyi hadisədir.



Dənizin düz kənarında duran "Əli və Nino" heykəlinin yerinin dəyişdirilməsi haqqında qərar bir neçə ay qabaq çıxarılıb. Suyun heykəlin təməlini zədələməsindən sonra bu addım atılıb. Hazırda heykəl dəniz sahilindən 50 metr aralıda yerləşir.

Məhəbbət abidəsi adlandırılan "Əli və Nino" 2011-ci ilin yayında ucaldılıb.

Iki nəhəng qadın və kişi fiquru fərqli millətdən və fərqli dindən olan Əli və Ninonu təcəssüm etdirir. Abidənin müəllifi Tamar Kvesitadzeni abidəni yaratmağa azərbaycanlı gəncin gürcü qızına aşiq olmasından bəhs edən Qurban Səidin (Tədqiqatçıların bir çoxu kitabı Yusif Vəzir Çəmənzəminlinin yazdığını iddia edirlər – red.) kitabı ilhamlandırmışdır.

Yeddi metrlik abidə yalnız öz tarixinə və böyüklüyünə görə maraqlı deyil. Əli və Nino hər axşam aramla bir-birinə doğru hərəkət edərək, yerlərini görüşənədək və bir bütövə çevrilənədək hər on dəqiqədən bir dəyişirlər. bundan sonra əks proses başlayır və hər şey yenidən təkrarlanır.

## KAXA SXADADZE GÜRCÜSTAN YIĞMASININ TƏRKİBİBİNİ ELAN ETDİ

Sentyabrın 4-də Gürcüstanın futbol üzrə yığması Tbilisidə Şotlandiya ilə, üç gün sonra isə səfərdə İrlandiya yığması ilə oynayacaq.

Futbol üzrə Gürcüstan yığmasının baş məşqçisi Kaxa Sxadadze Avropa çempionatının seçmə oyunlarında Şotlandiya və İrlandiya yığmalarına qarşı oynayacaq 24 futbolçunun adını açıqlayıb.

Gürcüstan yığmasına qapıçılar Nukri Revişvili, Qeorqi Loriya, Qeorqi Makaridze, müdafiəçilər Qeorqi Navalovski, Qeorqi Popxadze, Aleksandr Amisulaşvili, Zurab Xizanişvili, Quram Kaşiya, Saba Kvirkveliya, Uça Lobjanidze, Otar Kakabadze, yarımmüdafiəçilər Murtaz Dauşvili, Caba Kankava, Cano Ananidze, Sandro Kobaxidze, Tornike Okriaşvili, Nika Kvekveskiri, Qeorqi Merabaşvili, Valeri Kazaişvili, Levan Keniya, Mate Sinsadze, hücumçular Levan Mçedlidze, Baçana Sxadadze, Mate Vatsadze dəvət ediliblər.



Gürcüstan yığma komandasının futbolçuları ilk məşqlərini avqustun 31-də "Basa" məşq bazasında keçiriblər.

## ƏHMƏD MARANKİ ALMA ÇAYININ RESEPTİNİ TƏQDİM EDİB



Türkiyənin tanınmış professoru Əhməd Maranki sağlam qalmaq istəyən hər kəsə mütəmadi olaraq alma çayı içməyi məsləhət görüb. Bu çayın bir çox dərdin dərmanı olduğunu iddia edən professorun sözlərinə görə, alma çayı xolesterinin səviyyəsini aşağı salır, damarları qoruyur, ürəkbulanma və qusma hallarının qarşısını alır, orqanizmi toksinlərdən təmizləyir. Həmçinin, dərinin gözəlləşməsini və daha sağlam görünməsini təmin edir.

Əhməd Marankinin "min dərdin dərmanı" adlandırdığı alma çayının reseptini belədir:

Bir ədəd alma qaxını və ya təzə almanın soyulmuş qabıqlarını, iki dilim portağal və bir dilim limonla birliktə ılıq suyun içərisində 12 saat saxladıqdan sonra 10 dəqiqə qaynadın. Hər gün ondan bir stəkan için.

## HƏMAS HƏRBİÇİLƏRİ İSRAİLƏ MƏXSUS CASUS DELFİN ƏLƏ KEÇİRİBLƏR



İsrail xəbər portalı YNet News Fələstin KİV-nə istinadən HƏMAS hərbi hərəkatının ehtimal ki,İsrail kəşfiyyatının xeyrinə casusluqda istifadə olunan delfin ələ keçirdiyi barədə məlumat yayıb.

Delfin bir neçə həftə əvvəl HƏMAS hərəkatının seçmə dəniz xüsusi təyinatlı bölmələrinin təlim keçdiyi Qəzza sektoru sahilləri yaxınlığında ələ keçirilib.

Fələstinin Əl-Qüds qəzeti qeyd edib ki, delfinin şübhəli hərəkəti hərbiçilərin diqqətini cəlb edib. Nəşrin məlumatına görə, delfin ox atmaq üçün qurğu, eləcə də bölmənin təlimlərini çəkmək üçün kamera ilə təchiz edilib.

Bu, heyvanlardan İsrailin xeyrinə kəşfiyyat məqsədilə istifadə olunduğu birinci hal deyil. 2013-cü ildə Türkiyədə peyk casusluğu mexanizmi ilə təchiz olunmuş quşun tutulması haqqında məlumat yayılmışdır. 2010-cu ildə isə Misirdə bir neçə turisti öldürən akula ələ keçirilmişdir. Güman edilir ki, akulanın fəaliyyəti İsrail kəşfiyyatının regionda turizmi məhv etmək cəhdi ilə bağlı olub.

## BİL QEYTS YENƏ BİRİNCİDİR



Dünyanın məhşur biznes jurnalı olan "Forbes"in sonuncu nəşrində informasiya və yüksək texnologiyalar sahəsində 2015-ci ilin ən uğurlu sahibkarlarının reytinqi dərc edilib.

Siyahıya yenə də amerikalı maqnat, filantrop, "Microsoft" şirkətinin yaradıcısı Bil Qeyts başçılıq edir. "Forbes" onun 79,6 milyard dollara sahib olduğunu bildirir.

Reytinqin ikinci pilləsində "Oracle" şirkətinin sahibi Larri Ellison qərarlaşıb. Onun sərvəti 50 milyard dollar həcmində dəyərləndirilir. Üçlüyü "Amazon" portalının hissə sənədlərinin 90 faizinə sahib olan Ceff Bezos tamamlayır. Verilən məlumata görə, C. Bezos 47,8 milyard dollar sərvətə sahibdir.

Onluğa 41,2 milyard dollarlıq sərvətlə "Facebook"un qurucusu Mark Zukeberq də daxildir. "Google" şirkətinin təsisçisi Larri Peyc 33,4 milyard dollar sərvətlə ilk onluğa düşə bilib. "Apple" şirkətinin mərhum qurucusu Stiv Cobsun həyat yoldaşı Loren Pauellin sərvəti 21,4 milyard dollar həcmində dəyərləndirilib.

## HƏR ON NƏFƏRDƏN BİRİ SOLAXAYDIR

Dünya əhalisinin 11%-i solaxaydır. Dəqiq desək 10%-i, çünki ortada qalan 1% insan, həm solaxay, həm də ki, sağ vərdişlidir.

Elm niyə bəzi insanların solaxay və ya sağ vərdişli olaraq dünyaya gəldiyini hələ tapmayıb. Bunun genlərlə bağlı olduğu bilinməkdədir.

Bill Geyts, Stiv Cobs və başqa bir çox texnologiya şirkətinin qurucuları solaxay imiş.

ABŞ-ın prezidentlərinin bir çoxu solaxaydır. Solaxay prezidentlər arasında hal-hazırkı prezident Barak Obama da yer almaqdadır. Bəzi araşdırmalara görə, solaxayların sağ vərdişlilərə nisbətən elmə maraqları daha azdır.

Futbol dünyasındakı solaxayların hesabına, idman sahəsində solaxayların daha istedadlı olduğu qəbul edilməkdədir. Pele, Messi, Maradona, Aleks kimi tanınmış futbolçuların solaxay olması belə nəticəyə gəlməyə imkan verir.

Təsisçi:
"Gürcüstan gənclərinə Yardım və Maarifləndimrə Təşkilatı"

Redaktor:
Afiq Muxtaroğlu
Yayım Direktoru:
Hacı Bəkiroğlu

Ünvan: Qardabani şəh, Kolxoz küç, 4
Tel/ (+995) 595 92 25 70
599 54 12 92
email: yeni_yol@mail.ru

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir.
Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər.
Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır.
Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.